*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 418-426*

https://doi.org/10.62837/2026.2.418

**TƏHMİNƏ ƏSGƏROVA**
**Bakı Slavyan Universiteti**
e-mail: tahminasgerova@gmail.com

# ŞUŞA MƏDƏNİYYƏTİNİN İNCİLƏRİNDƏN – FATMA XANIM KƏMİNƏ

**Xülasə**

Məqalədə XIX əsr Şuşa ədəbi-mədəni mühitinin formalaşma xüsusiyyətləri, bu mühitin Azərbaycan ədəbiyyatının inkişafındakı rolu elmi-təhlili müstəvidə araşdırılır. Xüsusilə həmin mühitin görkəmli qadın nümayəndələrindən biri olan Fatma xanım Kəminənin şəxsiyyətinin və yaradıcılığının təşəkkülünə təsiri diqqət mərkəzinə çəkilir. Şairənin poetik irsi, klassik poeziya ənənələri ilə bağlılığı, qəzəllərinin bədii-estetik xüsusiyyətləri təhlil olunur. Eyni zamanda Fatma xanım Kəminənin Xurşidbanu Natəvanla yaradıcılıq əlaqələri və bu münasibətlərin Qarabağ ədəbi mühitində qadın poeziyasının inkişafına təsiri araşdırılır. Məqalənin əsas məqsədi Fatma xanım Kəminənin Azərbaycan ədəbiyyatında tutduğu yerin müəyyənləşdirilməsi və onun qadın yaradıcılığının formalaşmasındakı rolunun dəyərləndirilməsidir.

**Açar sözlər:** Şuşa, Fatma xanım Kəminə, ədəbi məclis, poeziya, qadın şairlər.

## Giriş

XIX əsr Azərbaycan ədəbiyyatı milli ədəbi düşüncənin formalaşması, klassik Şərq poeziyası ənənələrinin yeni ictimai-estetik tələblərlə uzlaşdırılması baxımından mühüm mərhələdir. Bu dövrdə Qarabağ, xüsusilə Şuşa şəhəri yalnız siyasi və mədəni mərkəz kimi deyil, eyni zamanda zəngin ədəbi mühitin formalaşdığı əsas ocaqlardan biri kimi diqqəti cəlb edir. Şuşada yaranan ədəbi məclislər, burada fəaliyyət göstərən şair və sənətkarlar Azərbaycan ədəbiyyatının inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamışdır.

XIX əsr Şuşa ədəbi mühitinin səciyyəvi cəhətlərindən biri qadınların ədəbi prosesdə fəal iştirak etməsi, onların poetik yaradıcılıqla yanaşı, ictimai-mənəvi mövqe nümayiş etdirməsi olmuşdur. Bu mühitdə yetişən qadın şairələr təkcə klassik poeziya ənənələrinin davamçıları kimi deyil, həm də dövrün mənəvi-estetik düşüncəsini ifadə edən yaradıcı simalar kimi çıxış etmişlər. Belə sənətkarlardan biri də Fatma xanım Kəminədir.

## XIX əsr Şuşa ədəbi-mədəni mühiti və Fatma xanım Kəminənin formalaşma zəmini

Şuşa Azərbaycan tarixində və mədəniyyətində müstəsna yerə malik qədim şəhər, Qarabağın tacı, milli-mənəvi dəyərlərimizin simvoludur. Professor Hamlet İsaxanlının haqlı olaraq qeyd etdiyi kimi: “Azərbaycanlılar üçün Şuşa nədir?

Almanlar üçün Vienna, italiyalılar üçün Milan ya Florence, ruslar üçün Sankt-Peterburq, yaponlar üçün Kyoto, israillilər və fələstinlilər üçün Yerusəlim (Qüds, Jerusalem) necə əzizsə, azərbaycanlılar üçün Şuşa elə əzizdir" [4, s.23].

Tarixin müxtəlif mərhələlərində "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Şərqin konservatoriyası" kimi adlandırılan Şuşa Azərbaycan xalqının tarixi yaddaşında mədəniyyət mərkəzi kimi formalaşmışdır.

XIX əsrdə Şuşada ədəbiyyat və incəsənət xüsusilə sürətlə inkişaf etmiş, şəhər regionun aparıcı ədəbi-mədəni ocaqlarından birinə çevrilmişdir. Musiqişünas Firidun Şuşinskinin yazdığına görə "Təkcə XIX əsrdə istedadlar məskəni olan bu şəhərdə 95 şair və ədib, 22 musiqişünas, 35 xanəndə olmuşdur" [7, 63].

XIX əsrdə Qarabağ ədəbi mühiti özünəməxsus, eyni zamanda mürəkkəb inkişaf yolu keçmişdir. Bu dövrdə Azərbaycanın tarixində yaşanan mürəkkəb ictimai-siyasi proseslər bu regionun da ədəbi-mədəni həyatında özünün dərin, silinməz izlərini qoymuşdur. Şuşa şəhəri həm Qarabağ, həm də Azərbaycan ədəbi məclislərinin əsas ocağı hesab edilirdi. Burada formalaşan ədəbi məclislər özünün çoxyönlü funksiyası, ədəbiyyata, mədəniyyətə, maarifə verdiyi töhfələrlə fərqlənir. Məhz bu ədəbi məclislərin fəaliyyəti nəticəsində Qarabağ ədəbi mühitini təmsil edən şairlər Azərbaycanın digər mədəniyyət mərkəzləri ilə sıx əlaqə və rabitə yarada bilmişdir. Şuşa məclisləri "Məclisi-üns" ("Dostluq məclisi") və "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") idi.

1864-cü ildə şuşalı şair Mirzə Rəhim Fəna tərəfindən əsası qoyulan "Məclisi-üns"ə sonralar 25 il ərzində Xan qızı Xurşidbanu Natəvan rəhbərlik etmişdir. Otuzdan artıq üzvü olan bu məclisin fəal iştirakçıları sırasında Mirzə Sadıq Piran, Rəhim bəy Fəna, Mirzə Ələsgər Növrəs, Məmo bəy Məmai, İsmayıl bəy Daruğə, Baxış bəy Səbur və başqaları yer alırdı. 1872-ci ildə Mir Möhsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan"ın ətrafında toplaşan Şuşa şairləri - Abdulla bəy Asi, Fatma xanım Kəminə, Həsənəliağa xan Qaradağski, Sədi Sani Qarabaği, Mirzə Əbdül Şahin, Molla Saleh Bülbül, Məşədi Əyyub Baki, Bəhram bəy Fədai və başqaları o dövrün tanınmış simaları idi. Məclisin məşğələləri Mir Möhsün Nəvvabın evində keçirdi. "Məclisi-fəramuşan" 1910-cu ilədək fəaliyyət göstərmişdir. Bu ədəbi məclislər ilk növbədə şeir və sənət məktəbi funksiyasını daşıyırdı. Burada şairlər yeni əsərlərini oxuyur, müzakirələr aparır, deyişmələr keçirir, klassik Şərq ədəbiyyatının ən dəyərli nümunələrini birgə təhlil edir, şeir normalarını və poetik ənənələri mənimsəyirdilər. Bu ənənələr nəsildən-nəslə ötürülərək Qarabağ ədəbi məktəbinin davamlılığını təmin edirdi. İncəsənətin fərqli növlərini əlaqəli formada təqdim edən Şuşa ədəbi məclisləri musiqi, rəssamlıq, xəttatlıq fəaliyyətini də mərkəzləşdirən mədəniyyət ocaqları idi. "Məclisi-fəramuşan" ədəbi məclisinin üzvləri Bakıda "Əkinçi", Tiflisdə "Ziya" və "Kəşkül", Hindistanda fars dilində nəşr olunan "Həbl-ül-mətn" məcmuələri ilə tanış olur, "Məclisi-üns", "Beytüs-səfa" və digər ədəbi məclislərlə sıx əlaqə saxlayırdılar.

Qarabağ ədəbi mühitinin əsas özünəməxsus cəhətlərindən biri qadınların kişilərlə birgə ədəbi məclislərdə fəal iştirak etməsi idi. Qarabağın Azərbaycan mədəniyyətinə bəxş etdiyi tanınmış simaları içərisində qadın şairlərin xüsusi yeri var. Kişi şairlərin ön planda olduğu ədəbiyyat səhnəsində qadın şair olmaq, həm də ədəbi məclislərdə iştirak etmək o dövr üçün böyük cəsarət tələb edirdi. XIX əsr Şuşa ədəbi mühiti Ağabəyim Ağa, Aşıq Pəri, Gövhər Ağa, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Xanbikə xanım, Qəmər Bəyim Şeyda kimi söz ustaları yetişdirdi. Professor Rüstəm Kamal qadın şairlərin yaradıcılığını vurğulayan "XIX əsr Azərbaycan ədəbiyyatnda qadın ruhu" adlı məqaləsində yazır: "Cəsarətlə deyərdim ki, qadın şairlərin yaradıcılığı Mirzə Fətəlidən və Həsənbəy Zərdabidən sonra XIX əsr Azərbaycan ədəbiyyatına şöhrət gətirən ikinci böyük ədəbi mədəni hadisədir" [9, 10].

Bu mühitdə formalaşan ən fəal qadın şairlərdən biri Fatma xanım Kəminə olmuşdur. Onun poetik zövqünün və yaradıcılıq dəsti-xəttinin formalaşmasında "Məclisi-fəramuşan" və "Məclisi-üns"ün, eləcə də Natəvan, Mir Möhsün Nəvvab, Mirzə Rəhim Fəna kimi sənətkarların mühüm rolu olmuşdur.

**XIX əsr Qarabağ ədəbi mühitində qadın yaradıcılığı və Fatma xanım Kəminənin mövqeyi**

Azərbaycan klassik irsinin tanınmış nümayəndələrindən Fatma xanım Kəminənin adı XIX əsr təzkirəçiləri Ağa Məhəmməd Müctəhidzadənin "Riyazül-aşiqin", Mirzə İsa Xəyalinin "Təzkireyi-Ziayi", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərlərində xüsusi ehtiramla çəkilmişdir. Firudin bəy Köçərli onun bədii irsini yüksək dəyərləndirərək, Fatma xanım Kəminəni "Nadireyi zəmanə", Aşıq Pəri və Xurşudbanu Natəvandan sonra "Qarabağın üçüncü şaireyi-möhtərəməsi" adlandırmışdır. Fatma xanım 1841-ci ildə Şuşada, maarifçi və ziyalı bir ailədə anadan olmuşdur. Atası Mirzə Bəybaba Tahirzadə (Fəna) şair, xəttat və mədəniyyət xadimi kimi tanınırdı. Fatma xanımın ilk sənət müəllimi də məhz atası olmuş, o, erkən yaşlarından poeziya və söz mühitində formalaşmışdır. Şuşada ilk təhsilini alan Fatma xanım ana dili ilə yanaşı fars dilini də mükəmməl öyrənmiş, hər iki dildə "Kəminə" təxəllüsü ilə şeirlər yazmışdır. Fatma xanımın adını ilk dəfə Şuşanın elmi-mədəni həyatının salnaməçisi Mirmöhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində çəkmiş, onun haqqında qısa məlumat və şeirlərindən nümunələr vermişdir. Fatma xanım uşaqlıq çağlarından poeziya və şerləşmə mühitində böyüdüyündən, istedad və qabiliyyətinə görə atasının şair dostlarının diqqətini özünə cəlb etmişdir. Vaxtilə Fatma xanım Kəminənin nəvə-nəticələrini görən Xalq yazıçısı Əzizə Cəfərzadə şifahi mənbələrə əsaslanaraq qeyd edir ki, "...mollaxanadan sonra dörd-beş il İstanbulda təhsil almışdır" [1, 17].

Fatma xanım Kəminə dövrünün maarifli, cəsarətli və nüfuzlu qadınlarından idi. O, kişilərin iştirak etdiyi məclislərdə fikrini açıq ifadə edir, mövqeyini qətiyyətlə müdafiə edirdi. Tanınmış ədəbiyyatşünas alim Vilayət Quliyev yazır: "XIX əsrdə Azərbaycan qadını heç yerdə çoxəsrlik dini ehkamlar və xürafat üzərində Şuşadakı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 418-426*

kimi parlaq qələbə qazanmamışdı, onun səsi heç yerdə Şuşadakı kimi gur və əzəmətli səslənməmişdi" [5].

Azərbaycan ədəbiyyatı, tarix və publisistikasının inkişafında və təbliğində müstəsna xidmətləri olan Ceyhun Hacıbəylinin 1911-ci ildə "Kaspi" qəzetində dərc olunan "Azərbaycanın gülləri" adlı məqaləsində 7 nəfər Azərbaycan şairəsinin- Ağabəyim Ağa, Aşıq Pəri, Gövhər Ağa, Fatma xanım Kəminə, Xurşidbanu Natəvan, Fatma Bikə, Qubalı Bikə xanımın həyat və yaradıcılığından bəhs olunur. C.Hacıbəyli haqlı olaraq yazırdı ki, "Bu qadın şairlər öz kişi həmkarlarından geri qalmır, insan qəlbinin incə hisslərini, tellərini vəsf edəndə isə onları üstələyirlər" [8, 280].

Fatma xanım Kəminə XIX əsr Azərbaycan ədəbi mühitində həm zəngin poetik irsinə, həm də yüksək mənəvi keyfiyyətlərinə görə böyük nüfuz qazanmışdır. Onun şəxsiyyətinə və yaradıcılığına göstərilən ehtiram hələ sağlığında özünü büruzə vermiş, bir sıra şair və şairələr tərəfindən ona həsr olunmuş qəzəllər və mənzum müraciətlər qələmə alınmışdır. Xüsusilə qadın şairlər Fatma xanım Kəminəni mənəvi-ədəbi ustad kimi qəbul etmiş, onu öz yaradıcılıqlarında örnək şəxsiyyət kimi dəyərləndirmişlər.

Bu baxımdan İbrahimxəlil xan Cavanşirin qız nəvəsi, şairə və dramaturq Qəmər bəyim Şeydanın, eləcə də Ərdəbilli Mustafa xanın qızı Ziba xanım Lələnin Kəminəyə ithaf etdikləri qəzəllər diqqətəlayiqdir. Həmin poetik nümunələrdə Fatma xanımın yalnız sənətkarlığı deyil, eyni zamanda humanist dünyagörüşü, insanpərvər mövqeyi və xeyirxah əməlləri tərənnüm olunur. Şaxis təxəllüslü bir şairin 36 misradan ibarət mənzum məktubunda Kəminənin kasıblara yardım göstərən, mərhəmətli və genişqəlbli bir şəxsiyyət kimi təqdim edilməsi də bunu təsdiqləyir. Onun şəxsiyyətinə göstərilən yüksək qiymət yalnız Qarabağ ədəbi mühiti ilə məhdudlaşmamışdır. Azərbaycanın müxtəlif bölgələrində yaşayan sözsevərlər və poeziya həvəskarları Fatma xanım Kəminənin qəzəllərini sevə-sevə oxumuş, onları bayazlara və cünglərə köçürərək yaymışlar. Bu fakt şairənin yaradıcılığının geniş coğrafiyada tanındığını və oxucu rəğbəti qazandığını göstərir. Ədəbi məclislərin fəal üzvləri kimi tanınan Xurşidbanu Natəvan və Fatma xanım Kəminənin Azərbaycan ədəbi mühitində qazandıqları yüksək nüfuz, xüsusilə qadınlar arasında şeirə və ədəbiyyata marağın artmasında mühüm rol oynamış, qadın yaradıcılığının ictimai-ədəbi müstəvidə möhkəmlənməsinə zəmin yaratmışdır.

**Fatma xanım Kəminənin poetik irsi və bədii xüsusiyyətləri**

Qarabağda divan ədəbiyyatı ənənələrinin inkişafında Fatma xanım Kəminəninin özünəməxsus xidmətləri olmuşdur. Fatma xanım Kəminə poetik dəsti-xəttini klassik Azərbaycan, fars və çağatay poeziyasının ənənələri əsasında formalaşdırmışdır. Yaradıcılığında daha çox Füzuli şeirinin təsiri hiss olunur. Füzuli poeziyasının təsiri onun şeirlərinin yalnız mövzu və ideyasında deyil, yaradıcılığının bədii strukturunda, poetik dilində, qəzəllərinin vəznində, daxili bölgüsündə aydın müşahidə olunur. Böyük ustadın sənətkarlığından bəhrələnən Kəminənin poetik irsi

əsasən qəzəllərdən ibarətdir. Bu qəzəllərdə məhəbbət və gözəllik, sevgi, dostluq, insanpərvərlik, sədaqət, etibar, ədalət, insaf tərənnüm olunur. Azərbaycan və fars dillərində qələmə aldığı qəzəllərində şairə klassik Şərq poeziyasının ənənəvi mövzularından kənara çıxmamışdır. Lakin müasirlərinin əksəriyyətindən fərqli olaraq şeirlərində bir ümid işığı, həyata, insana inamdan doğan nikbin ruh üstünlük təşkil edir. "Kəminənin ən qəmli, ən həzin parçalarından belə xoş, nikbin bir əhvali-ruhiyyə ilə ayrılırsan" (Əzizə Cəfərzadə).

Fatma xanım Kəminənin yaradıcılığında oxucunu sözün estetik gücü ilə təsirləndirmək, poetik obrazlar vasitəsilə yaddaqalan bədii lövhələr yaratmaq istəyi mühüm yer tutur. Onun aşiqanə ruhda yazılmış qəzəllərində lirik qəhrəman sevgiyə və sədaqətə inanır, çətinliklər qarşısında ümidsizliyə qapılmır:

Əcəb sevdadı bu, sevdayə düşdüm,
Rəhi-eşqin tutub qovğayə düşdüm.
Nə dünyada gəzib kamə irişdim,
Nə fikri-yar ol üqbayə düşdüm [2, 61].

"Saqiya, mey ver ki mən meyxanədə küllənmişəm" beyti ilə başlayan qəzəlində şairə aşiqin mənəvi durumunu incə yumor elementləri ilə təqdim edir və ayrılıq motivlərini bədbinliklə deyil, daxili dözüm və inamla ifadə edir. "Ey dil, rəva deyil ki mən əğyarə yalvarım", "Rəhi-eşq içrə mənzurum mənim ol tacdarımdır" kimi qəzəllərində də eyni ümid və nikbinlik xətti davam etdirilir.

Şuşanın füsunkar təbiəti Fatma xanım Kəminənin poeziyasında xüsusi yer tutur. Onun qəzəllərindəki bir sıra beytlər peyzaj lirikasının parlaq nümunələri kimi dəyərləndirilə bilər. Şairə təbiət hadisələri ilə insanın daxili aləmi arasında mənəvi bağlılıq yaradır. Həyatın sevincli anları baharın təravətli, işıqlı ovqatı ilə təqdim olunur:

Bahar əyyamıdır, güllər açmış, bülbül olmuş zar,
Giriban-çak olub qönçə tamamən şadü xəndandır [2, 88].

Bunun əksinə olaraq, zəmanənin ağırlığından, dostların etibarsızlığından və ömrün vəfasızlığından bəhs edən şeirlərdə payızın solğun və tünd rəngləri poetik simvola çevrilir:

Xəzani - ömr yetmiş, həm ümidi-vəsl bitmiş,
Tökülmüş ləşkəri-qəm könlümə kim, gör nə talandır [2, 88].
yaxud
Pozuldu rövnəqi-gül, əlri-gülüstan getdi,
Saraldı gülləri, əl çəkdi bağiban getdi [2, 52].

Kəminənin qəzəllərində qadın gözəlliyinin poetik tərənnümü də mühüm yer tutur. Şairə bir çox şeirlərində idealizə olunmuş, romantik və estetik baxımdan kamil qadın obrazı yaradır:

Sənin əbrulərin qövsü-qüzehdir, ya hilali-nov,
Heyifdir mən bənzədim qaşların taqi-kəlisayə [2, 29].

yaxud
Zülfi-müşkinin alıb dövri-ruxun halə sifət,
Belə bir halət olur cümlə o məhrulərdə [2, 27].

Fatma xanım Kəminə maddi baxımdan təmin olunmuş bir mühitdə yaşamış olsa da, yaşadığı dövrün ictimai-mənəvi ziddiyyətlərini dərindən duyur, poeziyasında ikiüzlü zəmanədən, ədalətsizliklərdən və riyakarlıqdan şikayət motivlərinə yer verirdi. Bu baxımdan onun Xurşidbanu Natəvanın "Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı" mətləli qəzəlinə yazdığı nəzirə şairənin həm həyatda, həm də poeziyada daha səmimi və ədalətli münasibətlərə can atdığını göstərir. Şairənin fars dilində yazdığı əsərlərindən iyirmi qəzəli və "Saqinamə"si günümüzə gəlib çatmışdır. Bu əsərləri Azərbaycan dilinə tərcümə edən Məmmədağa Sultanov müəllifin bu dilə dərindən bələd olması ilə yanaşı, əruz elmini mükəmməl bildiyini də müşahidə edərək yazırdı: "Buna görə də yazdığı saqinamə və qəzəllərinin əksəriyyəti bir çox fars şairlərinin əsərlərindən üstündür" [1, 17].

Fatma xanım Kəminə qəzəllərini əsasən əruz vəzninin həzəc, rəməl, rəcəz, müzare və müctəz bəhrlərində yazmış, ümumilikdə on bir qəlibdən istifadə etmişdir. Ən çox müraciət etdiyi bəhr isə həzəc olmuşdur. Onun qəzəllərinin böyük bir hissəsi nəzirə xarakteri daşısa da, şairə klassik ənənəni kor-koranə təqlid etməmiş, fərdi üslub axtarışları ilə seçilmişdir. Bu qəzəllər yüksək bədii keyfiyyətləri, daxili qafiyələri, ahəngdar vəzn quruluşu və zəngin bədii ifadə vasitələri ilə səciyyələnir. Təzkirə mənbələrində Kəminənin heca vəznində də şeirlər yaratdığı barədə məlumatlara rast gəlinir. Xəstə Qasımın şeirindən ilhamlanaraq yazdığı və günümüzə gəlib çatan qoşması şairənin heca vəznində də poetik ustalığını nümayiş etdirir. Bu qoşmada folklor elementlərindən, danışıq dilinin ifadə imkanlarından məharətlə istifadə olunmuşdur.

**Fatma xanım Kəminənin ədəbi irsi: əlyazmalar və nəşr məsələləri**

Mir Möhsün Nəvvabın təzkirəsində Fatma xanım Kəminənin şeirlərinin sayı 400, Firudin bəy Köçərlinin tədqiqatlarında isə 500 olaraq göstərilir. Məhəmməd ağa Müctəhidzadə "Riyazül-aşiqin" təzkirəsində şairənin divanının mövcud olduğunu və onu gördüyünü qeyd etmişdir [6, 157].

Hazırda Respublika Əlyazmalar İnstitutunda Fatma xanım Kəminənin avtoqraf əsərləri - qəzəlləri (B-236 şifrəli cüng), Qarabağ şairlərinə yazdığı məktublar və nəzirələri, eləcə də məşhur şair Məmo bəy Məmai tərəfindən Nəvai divanının kənarına yazılmış bir neçə qəzəli və müşairələri (deyişmə, şeirləşmə) də mühafizə olunmaqdadır. Fatma xanım Kəminənin irsinin toplanması və nəşrində Əzizə Cəfərzadənin xidmətləri xüsusilə qeyd olunmalıdır. Onun tərtibi ilə 1971-ci ildə nəşr edilən kitab, eləcə də 2022-ci ildə təkmilləşdirilmiş yeni nəşr şairənin yaradıcılığının müasir oxucuya çatdırılmasında mühüm mərhələ olmuşdur. Təəssüf ki, Fatma xanım Kəminənin zəngin poetik irsi bu günədək tam şəkildə toplanıb nəşr olunmamışdır. Mövcud əlyazmaların sistemli şəkildə araşdırılması, əsərlərinin elmi-tənqidi

mətnlərinin hazırlanması və geniş oxucu auditoriyasına çatdırılması aktual elmi və mədəni vəzifə olaraq qalır. Şairənin yaradıcılığının dərindən öyrənilməsi XIX əsr Azərbaycan ədəbiyyatının, xüsusilə qadın poeziyasının daha dolğun mənzərəsinin yaradılmasına mühüm töhfə verə bilər.

**Xurşidbanu Natəvan və Fatma xanım Kəminə: yaradıcılıq əlaqələri və mənəvi yaxınlıq**

XIX əsr Azərbaycan ədəbiyyatında qadın yaradıcılığının formalaşması və inkişafında mühüm rol oynayan simalardan biri Qarabağ xanlığının sonuncu xanı Mehdiqulu xan Cavanşirin yeganə övladı Xurşidbanu Natəvan, digəri isə F. Köçərlinin "Nadireyi-zəmanə" adlandırdığı Fatma xanım Kəminə olmuşdur. Hər iki şairə yalnız poetik irsləri ilə deyil, eyni zamanda Qarabağ ədəbi-bədii mühitinə verdikləri istiqamətverici töhfələrlə seçilmişdir. Xurşidbanu Natəvanla Fatma xanım Kəminə arasındakı münasibətlər təkcə ədəbi yaradıcılıq çərçivəsi ilə məhdudlaşmamış, real həyati faktlara əsaslanan səmimi dostluq və mənəvi yaxınlıq üzərində qurulmuşdur. Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns" ədəbi məclisində Fatma xanım Kəminənin müntəzəm iştirakı bu əlaqələrin davamlı və sistemli xarakter daşıdığını göstərir.Kəminə dövrün bir çox şairləri kimi Natəvanın həyatında baş vermiş mühüm hadisələrə – oğlu Mirabbasın vəfatına, digər oğlu Mehdiqulu xanın Tiflisə köçməsinə, eləcə də "Məclisi-üns"dəki fəaliyyətinə münasibət bildirərək qəzəllər, nəzirələr və mənzum məktublar qələmə almışdır.

Xüsusilə Natəvanın Tiflisə köçən oğlu Mehdiqulu xana müraciətlə yazdığı "Ölürəm" rədifli qəzələ Fatma xanım Kəminənin verdiyi poetik cavab diqqətəlayiqdir. Həmin qəzəldə Natəvan ana iztirablarını, ayrılıq ağrısını və mənəvi sarsıntılarını ifadə edərək oğlunu inadından əl çəkməyə, ananın qəlb əzablarına son qoymağa səsləyir:

Varımdı sinədə dərdü qəmi-nihan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtəhan, ölürəm.
Fəraqdən tükənib tabü taqətim, billah,
Vüsalə yetməz əlim, zarü Natəvan ölürəm [3, 59].

Bu kədərli və həzin misralar Fatma xanım Kəminənin qadın həssaslığını dərindən təsirləndirmiş, o da Natəvana müraciətlə yazdığı cavab qəzəlində təsəlli, səbir və mənəvi dayaq motivlərini ön plana çəkmişdir.

Mərizi-eşqə əlac eyləməz təbib, ölmə!
Bu dərdə çarə edər visləti-həbib, ölmə!
Demə vətəndə mənə bir ənisü munis yox,
Sənə ənis qəmi-eşqdir, qərib ölmə [2, 31]!

Natəvanın şeir və rəsmlərinin toplandığı "Gül dəftəri" adlı albomu ilə tanış olan Fatma xanım Kəminə onun incə estetik zövqünü və yaradıcılıq çoxşaxəliliyini yüksək qiymətləndirmiş, bu heyranlığını poetik şəkildə ifadə etmişdir. Bu münasibət iki

şairə arasında yalnız söz ustalığının deyil, həm də sənətə, gözəlliyə və yaradıcılığa ortaq baxışın mövcudluğunu nümayiş etdirir:

Bulub Xurşid ruyin feyzini gülrəng tutalım,
Çu fəyyazi-zəmansan, natəvan olma, təvana gəl.
Tikib bu cild pürnəqşi nigari Natəvan, bəh-bəh,
Əgər görsən nə bağ istə, nə gül axtar, nə dünya gəz [2, 47].

Qarabağ ədəbi məclislərində baş tutan müşairələrdə Natəvan və Kəminənin eyni vəzndə, oxşar qafiyə və ruhda yazdıqları qəzəllər onların poetik düşüncə tərzinin yaxınlığını aydın şəkildə ortaya qoyur. Natəvanın "Kaş əzəldən gəlməyəydim, ey fələk, dünyaya mən" misrasıyla başlayan qəzəlinə Fatma xanım "Gəldiyim gündən əsirəm bir quru sevdayə mən" misrasıyla başlayan qəzəlini bədahətən şöyləmişdi. Yaxud, Natəvanın "Nə yaxşı munis idi, heyf, nagəhan getdi" mətləli qəzəli ilə Kəminənin "Pozuldu rövnəqi-gül, əlri-gülüstan getdi" qəzəli, Natəvanın "Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı" mətləli qəzəli ilə Fatma xanımın "Nə dam olaydı, nə danə, nə zülf olaydı, nə xal"qəzəli mövzu, ideya və bədiilik baxımından uyğunluq təşkil edir. Beləliklə, Xurşidbanu Natəvan və Fatma xanım Kəminənin yaradıcılıq əlaqələri yaşadıqları ictimai-mədəni mühitlə sıx bağlı olmuş, bu münasibətlər həm yüksək poetik sənətkarlığın, həm də qadınlar arasında səmimi dostluq və mənəvi həmrəyliyin klassik nümunəsinə çevrilmişdir.

***Nəticə***

Aparılan araşdırma XIX əsr Azərbaycan ədəbiyyatının formalaşmasında Qarabağ, xüsusilə Şuşa ədəbi mühitinin həlledici rolunu bir daha təsdiqləyir. Bu mühit yalnız klassik poeziya ənənələrinin yaşadıldığı mərkəz kimi deyil, eyni zamanda yeni estetik baxışların, maarifçi ideyaların və ictimai-mənəvi dəyərlərin təşəkkül tapdığı mədəni platforma kimi çıxış etmişdir.

Bu mühitdə formalaşan qadın şairlərin, xüsusilə Fatma xanım Kəminənin yaradıcılığı XIX əsr Azərbaycan ədəbiyyatının məzmun və mahiyyət etibarilə zənginləşməsində mühüm rol oynamışdır. Nəticə etibarilə, Fatma xanım Kəminənin Azərbaycan ədəbiyyatındakı yeri yalnız "qadın şair" anlayışı ilə məhdudlaşmır; o, XIX əsr Qarabağ ədəbi məktəbinin aparıcı simalarından biri, klassik poeziyanın layiqli davamçısı və qadın yaradıcılığının formalaşmasında mühüm mərhələni təmsil edən sənətkardır. Onun həyat və yaradıcılığının öyrənilməsi Azərbaycan ədəbiyyat tarixinin qadın poetik irsi baxımından daha dolğun və obyektiv şəkildə dəyərləndirilməsinə imkan verir.

## Ədəbiyyat

1.Fatma xanım Kəminə. Seçilmiş şeirlər. Bakı: "Gənclik", 1971, 100 s.
2.Fatma xanım Kəminə. Seçilmiş əsərləri. Bakı: "Elm və təhsil", 2022, 172 s.
3.Xurşidbanu Natəvan. Əsərləri. Bakı, "Lider nəşriyyat", 2004, 88 s.
4.İsaxanlı H. Mənim Qarabağım və ya Qarabağ düyünü. Bakı, Xəzər Universiteti Nəşriyyatı, 2022, 242 s.

5.Quliyev V. Dönübdür qanə könlüm şişə içrə. 525-ci qəzet, 2021, 31 iyul.
6.Müctəhidzadə M . Riyazül - aşiqin. Bakı: "Azərbaycan", 1995, 248 s.
7.Şuşinski F. Azərbaycanın musiqi xəzinəsi. Bakı, "Vətənoğlu", 2015, 672 s.
8.Tahirli A. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu. Bakı, "Elm və təhsil", 2019, 344 s.
9.Ədəbiyyat qəzeti. 2019, 20 aprel, s. 10.

**Tahmina Askerova**

**Abstract**

**Jewels of Shusha's Culture – Fatma Khanum Kamina.**

The article examines, from a scholarly and analytical perspective, the formation of the nineteenth-century literary and cultural environment of Shusha and its role in the development of Azerbaijani literature. Special attention is paid to the influence of this environment on the formation of the personality and creative activity of one of the prominent representatives of women's poetry, Fatma Khanum Kamina. The study analyzes the poetess's literary heritage, her connection with the traditions of classical poetry, and the artistic and aesthetic features of her ghazals. Particular emphasis is placed on her creative relations with Khurshidbanu Natavan and their significance for the development of women's poetry within the Karabakh literary milieu. The main objective of the article is to determine Fatma Khanum Kamina's place in Azerbaijani literature and to assess her role in the formation of women's poetic creativity.

**Keywords:** Shusha, Fatma Khanum Kamina, literary assembly, poetry, women poets.

**Тахмина Аскерова**

**Резюме.**

В статье в научно-аналитическом аспекте рассматриваются особенности формирования литературно-культурной среды Шуши XIX века и её роль в развитии азербайджанской литературы. Особое внимание уделяется влиянию данной среды на становление личности и творчества одной из видных представительниц женской поэзии — Фатмы ханым Кемине. Анализируется поэтическое наследие поэтессы, её связь с традициями классической поэзии, а также художественно-эстетические особенности её газелей. Отдельно исследуются творческие связи Фатмы ханым Кемине с Хуршидбану Натаван и их значение в развитии женской поэзии в карабахской литературной среде. Основной целью статьи является определение места Фатмы ханым Кемине в азербайджанской литературе и оценка её роли в формировании женского поэтического творчества.

**Ключевые слова:** Шуша, Фатма ханым Кемине, литературное собрание, поэзия, женщины-поэты.

**Rəyçi:** filologiya elmləri doktoru, dosent **Gültəkin Əliyeva**